**Vəfa Həmidova**
**doktorant**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**E-mail:** vafahamidova79@gmail.com

# Musiqi poetikası: təşəkkülü və tətbiq dairəsinə dair

**Xülasə:** Məqalədə poetika məfhumuna dair araşdırma aparılmış, ümumilikdə "poetika" və "musiqi poetikası" terminləri aydınlaşdırılmışdır. Burada musiqi poetikasının klassifikasiyası verilmişdir. Onun musiqi elmində müxtəlif tədqiqatçıların işlərinə istinadən tətbiq istiqamətləri müəyyənləşdirilmişdir.

**Açar sözlər:** poetika, incəsənət poetikası, musiqi poetikası, janr, kompozisiya, Aristotel.

Müasir musiqişünaslıq elminin qarşıya qoyduğu problemlərdən biri də bu zamana qədər araşdırılmamış sahələrin tədqiqidir. Bu baxımdan hazırkı məqalənin tədqiqat obyekti bir qədər haçalı fikirlər və rəylər yaradan, çoxşaxəli spesifikası ilə müəyyən mənada fikirləri dolaşdıran, buna baxmayaq, dünyada kifayət qədər geniş yayılan və öz etimoloji kökləri ilə uzaq keçmişə dayanan müasir, həm də əbədi poetika məfhumudur.

Poetika çox geniş bir məfhum olaraq, yalnız bir təriflə məhdudlaşmayan, müxtəlif qollara şaxələnə bilən, bir təhlil obyekti kimi xüsusi maraq doğuran və az araşdırılan sahələrdəndir.

Ümumi mənada, poetika anlayışı yunan sözü - "*poëtike*" olub, "incəsənət poetikası" və ya "yaradıcılıq poetikası" kimi nəzərdə tutularaq, fənlərarası anlayışlar sırasına daxildir. Poetika poeziya nəzəriyyəsi, poetik fəaliyyəti tədqiq edən elm, onun yaranması, formaları, əhəmiyyəti və daha geniş mənada bütün ədəbiyyat qanunlarını ehtiva edir. Müasir elmi ədəbiyyatda poetika üç mənada istifadə olunur:

*sıx mənada* - "bədiilik", nitqin poetik əsərlərə və üsullar sisteminə çevrilməsini öyrənir, tədqiq edir;

*daha geniş mənada* – bədii mətnin, təkcə nitq cəhətdən deyil, həm də digər struktur məqamlarını nəzərdə tutur;

*nəhayət, poetikaya ümumi estetika sahəsi nöqteyi-nəzərdən* də baxılır ki, nəticədə, poetika yalnız ədəbiyyata deyil, eləcə də bütün incəsənətə aid olunur. *Musiqi poetikası* məfhumu da buradan meydana gəlir.

Poetika anlayışının yaranması qədim yunan filosofu, hərtərəfli fəlsəfi sistemləri – sosiologiya, siyasət, fizika, fəlsəfə və məntiqi yaratmış antik

dövrün ilk və mötəbər mütəfəkkiri olan Aristotelin adı ilə bağlıdır. Hərçənd, poetikanın yunan mənbəsi əsasında yaranmış olması onun daha əvvəlki dövrə də aid olduğundan xəbər verir (məsələn, antik miflərdə müxtəlif poetik janrların spesifikası haqqında nəzəri elementlərin mövcudluğu), ancaq Aristotelin sələfləri olan mütəfəkkirlər poetika məsələsinə ümumfəlsəfi quruluşda baxaraq, onu bir inkişaf sistemi olaraq aça bilməmişlər. Beləliklə də, Poetika məfhumu haqqında ilk dolğun sistematik əsər, tədqiqat işi Aristotelin "Poetika"sı sayılır. Onu da qeyd etmək lazımdır ki, Aristotelin "Poetika"sı ilk dəfə Şərq alimləri tərəfindən araşdırılıb, tərcümə olunaraq, Avropaya ötürülmüşdür. Əgər estetik problemlərin ümumi şərhi idealistik fəlsəfəyə doğru yüksəlirsə, poetik strukturun təhlil metodu - poetika metodu isə təbiət elmlərinin empirik metodu əsasında yaranmışdır. Antik dövrdən başlayaraq, Orta əsr, İntibah dövrü və klassisizmədək Aristotelin təsiri öz əksini tapmışdır. Poetik sənət – yaradıcı sənət anlamı daşıyır. Yunanca - *"poyeo"*- "yaradıram" felindən olan *"poetike"* - bədii fəaliyyət, yaradıcı sənət kimi bir mənanı ifadə edir. [1]

Poetika, artıq qeyd edildiyi kimi, fənlərarası anlayışlar sırasına aid olduğu üçün humanitar elmlər sahəsində, ədəbiyyatşünaslıq, teatrşünaslıq, kinoşünaslıqda olduğu kimi musiqişünaslıqda da geniş istifadə olunur. XX əsr ədəbiyyatşünaslığı sahəsində poetika Q.Fridlender, D.Lixaçov, Y.Mann, V.Jurminski, S.Averentsev kimi tədqiqatçılar tərəfindən özünəməxsus, müxtəlif istiqamətlərdən araşdırılmışdır. Bu araşdırmalar tarixi poetika və nəzəri poetika kimi növlərin də mövcudluğunu aşkar edir ki, ümumi poetika (nəzəri – sinxron və tarixi – diasinxron) və xüsusi (yəni, müəyyən bir yazıçının, janrın, əsərin poetikası nəzərdə tutulur.)

Bəs, musiqi poetikası nədir? Bu anlayış musiqi sənətində nə kimi xüsusiyyətə malikdir, hansı mənalarda işlənilir və elmi-tədqiqat obyekti kimi özündə nəyi ehtiva edir?

Musiqi poetikası dedikdə, bu, adətən, musiqidə poeziya, musiqi əsərlərində istifadə olunan söz sənəti kimi qavranılır. Lakin artıq neçə əsrlər boyu bir çox tədqiqatçılar poetika məfhumunu musiqi sahəsində də tədqiq etmiş və müasir dövrdə də musiqişünaslıq elminin metodoloji bir sahəsi olaraq araşdırmaqda davam edirlər.

*Musiqi poetikası* – latınca musica poetica – termini musiqi nəzəriyyəsində XVI-XVII əsrlərdən mövcud olaraq, musiqi kompozisiyası, musiqi yaradıcılığının törəməsi, artefaktı, eyni zamanda da musiqidə bəstəkarlıq texnikası kimi nəzərdə tutulur. *Musiqi poetikası* termini ilk dəfə XVI əsr alman musiqi nəzəriyyəçisi, musiqinin elementar nəzəriyyəsi haqqında "Musiqi əsasları" əsərinin müəllifi Nikolaus Listeniusun "Rəvan oxuma əsasları" traktatında meydana gəlmiş və Barokko alman musiqi elmində təşəkkül tapmışdır. Daha sonralar Henrix Faber, İ.Brumeyster, Andreas Herbst, Afanasi

Kirxer və başqa bu kimi XVI – XVII əsr alimlərinin musiqi texnikası, kompozisiyası və nəzəriyyəsinə dair əsərlər də meydana gəlir. Musiqi poetikası “sortizasiya” (lat. “sortisatio”) və “kompozisiya” (lat. “compositio”) bəndlərinə bölünür. Sortizasiya janra əsaslanır. Kompozisiya isə kontrapunkt texnikasını təsvir edir.

Müasir dövrdə o vaxtdan bəri poetika sahəsində bir çox tədqiqatlar üzrə kifayət qədər təcrübə əldə olunmuş, poetika anlayışı dərinliyinədək tədqiq edilmişdir. Musiqi-poetoloji tədqiqatların sayının çox ölkələrdə əhəmiyyətli dərəcədə artması “musiqi poetikası nəzəriyyəsinin” mövcudluğunu təsdiq edir. Özünün ilk fəlsəfi anlamına görə “incəsənət” və “ustalıq”, yaratmaq bacarığı, hər hansı bir hadisənin məğzini axtarıb açmaq mənasını daşıyan poetikanın musiqişünaslıqda da istifadəsi heç də təəccüblü deyildir, ona görə ki, musiqi incəsənətin spesifik növü olaraq, həm özü dəqiq və uyğun tədqiqi yanaşma tələb edir, həm də musiqişünaslıq digər sənətşünaslıq elmləri ilə vəhdət təşkil edərək, onları da özünə cəlb edir. Bu mənada, musiqişünaslıqda musiqi poetikasını, onun sərhədlərini və istifadə sahələrini müəyyənləşdirmək gərəkdir. Musiqişünaslıq elmində musiqi poetikası üzrə tədqiqat işləri XX əsrin əvvəllərindən meydana gəlməyə başlayır. Əvvəlcə, B.Yavorskinin və B.Asafyevin işlərində, ancaq bir qədər elmdən uzaq metafora şəklində işlənilir. Musiqi poetikası üzrə XX əsrin ən mükəmməl arışdırması İ.Stravinskinin “Musiqi poetikası” («Музыкальная поэтика») adlı kitabı oldu. Bu, musiqi poetikası məsələsinin xüsusi tədqiqinə həsr olunmuş, demək olar ki, ilk musiqili estetik tədqiqat oldu. Burada poetika bəstəkar yaradıcılığının estetikası və nəzəriyyəsi kontekstində “musiqinin hazırlanması” kimi şərh olunur. [12]

Daha sonralar musiqi poetikası iki yanaşma bölgüsünə ayrılır:

quruluşlu – məzmunlu;

məzmunlu – mənalı;

Quruluşlu-məzmunlu yanaşma çərçivəsində dəqiq musiqi-poetik kateqoriyalar: fəza və zaman, üslub, janr, süjet, fabula, personaj, kompozisiya tədqiq edilir. S.Savenko ( С. И. Савенко в статье «Заметки о поэтике современной музыки»), V.İ. Nemkovskaya (В. И. Немковская в диссертационном исследовании «Персонаж как категория музыкальной поэтики») kimi tədqiqatçıların işləri buna misal ola bilər.

Məzmunlu-mənalı tərəfdən yanaşmada isə musiqi-poetoloji tədqiqatlar musiqili məzmun quruluşunun təşkilinə cəlb olunur. Beləcə, E.Nazaykinskinin “Musiqi kompozisiyasının quruluşu” tədqiqatında musiqi süjeti, estetik dəyərlər, ideya və obrazlar, musiqili mənanı açaraq iyerarxik quruluşa malik olan musiqili məzmunu fəlsəfi-estetik kontekstə daxil edir. [10]

Musiqişünaslıqda poetika anlayışı 80-ci illərdən fəallaşmağa başlayır. V.Zaderatski, K.Zenkin, R.Kunitskaya, E.Nazaykinski, S.Savenko əsərin janr,

semantika, milli özünəməxsusluq, stilistika və kompozisiya məsələlərini poetika aspektindən açırlar. N.Qulyanitskaya, Y.Panteleyeva və digərləri (XX əsrin sonu XXI əsrin əvvəli) üslub poetikası kimi yanaşmanı tədqiq edir. [3, 5, 8, 10, 11]

Digər tədqiqatçılar K.Dalxauz və M.Lobanovanın poetikası fərdi yaradıcılıq nəzəriyyəsini özündə ehtiva edir. V.Şuranov və M.Poroxovniçenko isə poetikanı musiqi məzmununun açılmasına yönələn kompleksşəkilli metodun bir növü kimi semantik tərəfdən şərh edir. [6, 9]

Musiqişünaslıqda poetika anlayışı musiqi sənətinin spesifikasının, musiqi əsərlərinin dərin məzmununun açılmasına, onun kompozisiya və üslub xüsusiyyətlərinin üzə çıxarılmasına, əsas fikrin bədii cəhətdən həyata keçirilməsində müəllifin özünəməxsusluğunun dərk edilməsinə yönəldilmişdir. Musiqi poetikası metodunu musiqi əsərinin məğzini anlamaq üçün mətnin təfsiri ilə bağlı olan semantika və hermenevtika tərəfdən də araşdırmaq gərəkdir.

Bütün bunları araşdırmaqda milli musiqişünaslıq sahəsinə də "musiqi poetikası" məfhumunu tətbiq etmək məqsədi daşıyırıq. Belə ki, bu termin öz musiqişünaslığımızda kifayət qədər tətbiq olunmamış və ona elmi-tədqiqat obyekti olaraq xüsusi yer ayrılmamışdır. Bu, musiqinin bütün janr və formalarında tədqiqi maraqlı və zəruri olan bir problem obyektidir. Musiqi sənətinin, istər iri həcmli janrlarından olan opera, balet, simfoniya və s. sahəsəsində, istərsə də instrumental əsərlərdə musiqi poetikasını bu və digər aspektlərdən geniş şəkildə araşdırmaq mümkündür. Burada məfhuma yuxarıda sadalanan istiqamətlər kontekstində, yenə də istər geniş, istərsə də sıx mənada yanaşaraq, onun həm üslub, janr, kompozisiya, həm də müxtəlif ifadə vasitələrinin araşdırılması cəhətdən təhlilinin aparılması məqsədə uyğundur. Milli musiqişünaslığımızda da incəsənətin bir çox növ və janrlarında bədii dəyərə malik əsərlərin tədqiqi və təhlilində musiqi poetikası maraqlı bir tədqiqat sahəsi ola bilər.

## Ədəbiyyat

1. Aristotel. Poetika. Bakı., "Şərq-Qərb"., 2006, 120 s.
2. Проблемы поэтики. Сб. ст. / Под ред. В. Я. Брюсова. — М.; Л., 1925.
3. Бычкова, Н.В. Понятие поэтики в музыкознании / Н.В. Бычкова // Весці Беларус. дзярж. акад. музыкі. – 2006. – № 9. – С. 68–71.
4. Вобликова, А. Картина мира в симфониях А. Шнитке: особенности метафорической поэтики/А. Вобликова //Мир искусств : альманах. Вып. 4. СПб., 2002. С. 420-^137
5. Гуляницкая, Н. Поэтика музыкальной композиции: теоретические аспекты русской духовной музыки XX века / Н. Гуляницкая. М., 2002. С. 4-13.

6. Далъхауз, К. Музыкальная поэтика Шенберга / К. Дальхауз // Музыкальная академия. 1996. № 3-4. С. 249-252.
7. Жирмунский, В. Задачи поэтики/В. Жирмунский//Поэтика русской поэзии. СПб., 2001. С. 25-79.
8. Задерацкий, В. О национальной поэтике / В. Задерацкий // Сов. музыка. 1985. № 6. С. 79-82. - Рец. на кн.: Русская фортепианная музыка (черты своеобразия) / М. Смирнов.-М.: Музыка, 1983.-335 с.
9. Лобанова, М. Западноевропейское барокко: проблемы эстетики и поэтики / М. Лобанова. М., 1994. 13. Манн, Ю. Поэтика русского романтизма / Ю. Манн. М., 1976. 14.
10. Назайкинский, Е. Логика музыкальной композиции / Е. Назайкинский.-М.: Музыка, 1982.-319 с. 16.
11. Савенко, С. Заметки о поэтике современной музыки / С. Савенко // Современное искусство музыкальной композиции: сб. тр./ГМПИим.Гнесиных. М., 1985. Вып. 79. С. 5-16. 21.
12. Стравинский, И. Мысли из «Музыкальной поэтики» / пер. Э. Ашписа; ред. и коммент. Э. Денисова // Статьи и материалы/И.Ф. Стравинский. М., 1973. С. 23-47. 22.
**13.** https://dic.academic.ru/dic.nsf/ruwiki/1834585
14. http://www.dissercat.com/content/personazh-kak-kategoriya-muzykalnoi-poetikiveknauka.com/poetika-baletnogo-spektaklya-kontsa-xix-v
15. http://anl.az/el/a/a_p.pdf

## Музыкальная поэтика: о становлении и сфере применения

**Резюме**

В статье исследуется понятие «поэтика», раскрываются объяснения терминов «поэтика» и « музыкальная поэтика». Дается классификация музыкальной поэтики. На основе трудов разных исследователей определяется направления его применения в музыкальном искусстве.

**Ключевые слова:** поэтика, поэтика искусства, музыкальная поэтика, жанр, композиция, Аристотель.

## Musical poetics: on the formation and scope

**Summary**

Research on the concept of poetics has been conducted in this article, in general terms of "poetics" and "poetics of music" have been defined. Classification of poetics of music has been described here. Its application directions in musical science have been defined with reference of the works of different researchers.

**Key words:** poetics, poetics of art, poetics of music, genre, composition, Aristotle.